

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 3 iyun 2023-cü il №41 (2753) https://mod.gov.az Qiymәti 30 qəpik


## Azərbaycan Prezidenti İlham Əliyevin Moldovaya səfəri

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Avropa siyasi birliyi" 2-ci Zirvə toplantısında iştirak etmək üçün mayın 31-də Moldova Respublikasına səfər edib.*



Kişineu şəhərinin beynəlxalq aeroportunda dövlətimizin başçısını rəsmi şəxslər qarşılayıblar.

* * *

Mayın 31-də Kişineuda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Moldova Respublikasının Prezidenti Maya Sandu ilə görüşü olub.

Əvvəlcə birgə foto çəkdirilib.

Prezident Maya Sandu dövlətimizin başçısını Müstəqillik Günü və Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illiyi münasibətilə təbrik edib.

"Avropa siyasi birliyi"nin Zirvə toplantısının Moldovada keçirilməsi ilə bağlı təbriklərini çatdıran Prezident İlham Əliyev belə böyükmiqyaslı tədbirin dost Moldovada təşkil edilməsini müsbət qiymətləndirib.

Görüşdə ölkələrimiz arasında münasibətlərin yaxşı səviyyədə olduğu qeyd edilib, enerji, investisiyalar və digər istiqamətlərdə əməkdaşlıq məsələlərinə toxunulub, əlaqələrimizin perspektivləri müzakirə olunub.

Söhbət zamanı iqtisadi-ticari əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğu vurğulanıb, bu istiqamətdə səylərin artırılmasının vacibliyi qeyd edilib.

Beynəlxalq təşkilatlarda ölkələrimizin qarşılıqlı dəstəyi yüksək qiymətləndirilib, bu xüsusda Azərbaycanın və Moldovanın bir-birinin ərazi bütövlüyünü və suverenliyini daim dəstəklədikləri vurğulanıb.

Maya Sandu "Avropa siyasi birliyi"nin Moldovada keçirilən Zirvə toplantısı çərçivəsində dövlətimizin başçısının Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəstəyi ilə Ermənistanın baş nazirinin, Almaniya və Fransa liderlərinin iştirakı ilə keçiriləcək beştərəfli görüşünü müsbət addım kimi qiymətləndirib.

Dövlətimizin başçısı Moldova Prezidentini Azərbaycana səfərə dəvət edib.

Dəvət məmnunluqla qəbul olunub.

* * *

Mayın 31-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kişineuda Moldova Respublikasının Baş naziri Dorin Reçan ilə görüşüb.

Azərbaycan Prezidenti ilə görüşdən məmnunluğunu bildirən Moldovanın Baş naziri dövlətimizin başçısının "Avropa siyasi birliyi"nin Zirvə toplantısında iştirakına görə minnətdarlığını ifadə edib. Dorin Reçan Müstəqillik Günü və Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə Azərbaycan Prezidentini təbrik edib. O, Ümummilli Liderin nümunəvi şəxsiyyət olduğunu vurğulayıb.

Prezident İlham Əliyev "Avropa siyasi birliyi"nin Zirvə toplantısının Moldovada keçirilməsi münasibətilə təbriklərini çatdırıb.

Baş nazir Azərbaycanın Moldovaya göstərdiyi dəstəyə görə təşəkkürünü ifadə edib.

Söhbət zamanı ölkələrimiz arasında münasibətlərin yüksək səviyyədə olduğu qeyd edilib, Azərbaycan ilə Moldova arasında iqtisadi-ticari əlaqələrin daha da inkişaf etdirilməsi üçün geniş imkanların olduğu bildirilib. Hazırkı ticarət dövriyyəsinin qənaətbəxş olmadığı qeyd edilib. Ticarət dövriyyəsinin şaxələndirilməsinin vacibliyi diqqətə çatdırılıb. Bu xüsusda hökumətlərarası komissiyanın fəaliyyətinin daha da intensivləşdirilməsinin əhəmiyyəti vurğulanıb.

Söhbət zamanı Azərbaycan ilə Moldova arasında kənd təsərrüfatı, elektroenergetika, sərmayələr, infrastruktur layihələri ilə bağlı və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlıq üçün geniş imkanların olduğu qeyd edilib. Moldovanın üzümçülük və şərabçılıq sahəsində geniş təcrübəsinin, Azərbaycanın da bu sahədə zəngin ənənələrinin olduğu vurğulanıb. Bu istiqamətdə əməkdaşlığın genişləndirilməsi üçün imkanların mövcud olduğu bildirilib.

Dövlətimizin başçısı Moldovanın Baş nazirini Azərbaycana səfərə dəvət edib.

Dəvət məmnunluqla qəbul olunub.

* * *

İyunun 1-də Moldovanın paytaxtı Kişineuda "Avropa siyasi birliyi" 2-ci Zirvə toplantısının açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Moldova Respublikasının Prezidenti Maya Sandu Azərbaycan Prezidenti İlham Əliyevi, Zirvə toplantısında iştirak edən digər dövlət və hökumət başçılarını qarşılayıb.

Toplantı iştirakçıları birgə foto çəkdiriblər.

* * *

Paytaxt Kişineudan 35 kilometr məsafədə yerləşən Bulboaka kəndində keçirilən builki Zirvə toplantısında ümumilikdə 50-yə yaxın ölkədən dövlət və hökumət başçıları iştirak edirlər.

Sammitdə liderlər sülh və təhlükəsizliyin təmin edilməsi, enerji təhlükəsizliyinin və Avropada ölkələrarası əlaqələrin gücləndirilməsi mövzularında müzakirələr aparırlar.

Qeyd edək ki, həm Avropa İttifaqı daxilində, həm də ondan kənarda kiçik və böyük ölkələri müzakirələr zamanı bərabər səslə təmin edən nadir və misilsiz platforma olan "Avropa siyasi birliyi"nin məqsədi ümumi maraq doğuran məsələlərin həlli üçün siyasi dialoqu və əməkdaşlığı inkişaf etdirmək, Avropa qitəsinin təhlükəsizliyini, sabitliyini və rifahını gücləndirməkdir.

"Avropa siyasi birliyi"nin 2-ci Zirvə toplantısı Moldovanın tarixində ən böyük beynəlxalq tədbirdir.

Xatırladaq ki, "Avropa siyasi birliyi"nin 1-ci Zirvə toplantısı ötən ilin oktyabrında Çex Respublikasının paytaxtı Praqada keçirilib.

(Ardı 2-ci səhifədə)

## Birinci vitse-prezident Mehriban Əliyeva Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilə bağlı paylaşım edib




Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instagram səhifəsində 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilə bağlı paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edir: "Balaca soydaşlarımızı səmimi-qəlbdən təbrik edir, bütün balalara möhkəm cansağlığı və xoşbəxt həyat arzulayıram!".

## Şarl Mişel Azərbaycan, Ermənistan, Avropa İttifaqı Şurası, Almaniya və Fransa liderlərinin qeyri-rəsmi görüşündən sonra mətbuata açıqlama verib

Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel iyunun 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan, Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts və Fransa Respublikasının Prezidenti Emmanuel Makron arasında keçirilmiş qeyri-rəsmi görüşün yekunlarına dair mətbuata açıqlama verib.

AZƏRTAC xəbər verir ki, Şarl Mişel açıqlamasında deyib:

- Biz indicə Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın baş naziri Nikol Paşinyan, Fransa Prezidenti Emmanuel Makron və Almaniya Kansleri Olaf Şolts ilə çox yaxşı görüş keçirdik. Bizim may ayında Brüsseldə müzakirə etdiyimiz məsələləri nəzərdən keçirmək, əlaqələndirmə, təhlükəsizlik, sərhədlərin delimitasiyası, sülh sazişi ilə bağlı müzakirə aparmaq imkanımız oldu. Bu görüş iyulun 21-də Brüsseldə keçiriləcək növbəti toplantıya çox yaxşı hazırlıq oldu. Bu o deməkdir ki, biz çox gərgin çalışırıq. Biz münasibətlərin normallaşdırılması istiqamətində bütün müsbət səyləri dəstəkləmək niyyətindəyik və həmçinin bəyan etdik ki, Prezident Əliyevi, baş nazir Paşinyanı, Kansler Şoltsu və Prezident Makronu "Avropa siyasi birliyi"nin İspaniyada keçiriləcək növbəti toplantısı çərçivəsində yenidən görüşə dəvət etmək niyyətindəyik. Bu o deməkdir ki, biz Avropa İttifaqı tərəfindən münasibətlərin normallaşdırılması istiqamətində daha çox irəliləyişə nail olmağa yardım etmək üçün əlimizdən gələni edəcəyik.

# Azərbaycan Prezidenti İlham Əliyevin Moldovaya səfəri



(Əvvəli 1-ci səhifədə)

İyunun 1-də Moldovanın paytaxtı Kişineuda "Avropa siyasi birliyi"nin 2-ci Zirvə toplantısı çərçivəsində enerji təhlükəsizliyi məsələsinə həsr edilmiş dəyirmi masa keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

* * *

İyunun 1-də Kişineuda "Avropa siyasi birliyi"nin 2-ci Zirvə toplantısı çərçivəsində işçi lanç olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

* * *

İyunun 1-də Kişineuda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan və Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel arasında qeyri-rəsmi görüş olub.

* * *

İyunun 1-də Kişineuda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel, Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts və Fransa Respublikasının Prezidenti Emmanuel Makron arasında qeyri-rəsmi görüş keçirilib.



* * *

İyunun 1-də Moldovanın paytaxtı Kişineuda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşü olub.



Görüşdə Azərbaycan ilə Ukrayna arasında ikitərəfli əlaqələr ətrafında fikir mübadiləsi aparılıb, Prezident İlham Əliyevin 2022-ci ilin yanvarında Ukraynaya səfəri və səfər zamanı keçirilmiş müzakirələr qeyd edilib. Azərbaycan ilə Ukrayna arasında ikitərəfli əlaqələrin inkişafından məmnunluq ifadə olunub.

Prezident İlham Əliyev bildirib ki, Azərbaycan Respublikasının Ukraynaya yeni səfiri təyin olunub və səfir tezliklə fəaliyyətə başlayacaq.

Prezident Volodimir Zelenski Azərbaycanın Ukraynaya humanitar yardımlarına, ukraynalı uşaqlara göstərilən qayğıya və onların Azərbaycana səfərlərinin təşkil olunmasına görə təşəkkürünü bildirib və bunun çox yüksək qiymətləndirildiyini deyib.

Söhbət zamanı Azərbaycanın və Ukraynanın beynəlxalq təşkilatlar çərçivəsində bir-birinin ərazi bütövlüyünü və suverenliyini dəstəkləməsi məmnunluqla qeyd olunub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Mimi qəsrinin xatirə kitabını imzalayıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Moldova Respublikasına səfəri iyunun 1-də başa çatıb.

**AZƏRTAC-ın materialları əsasında**

# Azərbaycan Ordusunda keçirilən təlim-metodiki toplanış başa çatıb

*2023-cü ilin hazırlıq planına əsasən, Azərbaycan Ordusunun Əməliyyat (Komando), motoatıcı, mexanikləşdirilmiş bölmələrinin komandirləri və onların müavinləri ilə Hərbi İdarəetmə İnstitutunun Hərb Oyunları Mərkəzində keçirilən təlim-metodiki toplanış başa çatıb.*



Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti iyunun 1-də Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzinə gələrək təlim-metodiki toplanış ilə bağlı rəhbər heyətin məruzələrini dinləyib.

Bildirilib ki, komandir heyəti ilə müasir döyüşdə taktiki fəaliyyətlərin hazırlanması və aparılması, hərtərəfli təminatın təşkili, müxtəlif ərazi və hava şəraitində bölmələrin və atəşin idarə edilməsi, eləcə də digər mövzularda yeni biliklərin aşılanması məqsədi ilə metodiki məşğələlər keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, təlim metodiki toplanışın gedişatını müsbət qiymətləndirən general-polkovnik Zakir Həsənov toplanışın yekununda şəxsi heyət qarşısında çıxış edib.

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycanın suverenliyi, müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Müdafiə naziri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin mayın 28-də Laçın şəhərinə qayıdan əhali ilə görüşdə çıxışında Qarabağ iqtisadi rayonunda qeyri-qanuni fəaliyyət göstərən, özlərini "parlament", "prezident", "nazir", "deputat" adlandıran ünsürlər barədə səsləndirdiyi fikirləri və onlara tətbiq oluna biləcək amnistiya şərtlərini bir daha toplanış iştirakçılarının diqqətinə çatdırıb.

Müzəffər Ali Baş Komandanın Qarabağ iqtisadi zonasında təhlükəsizliyin təmin edilməsi ilə bağlı çıxışlarından irəli gələn, Azərbaycan Ordusunun qarşısında duran tapşırıqların qısa zamanda yerinə yetirilməsinin zəruriliyi qeyd edilib.

Dövlətimizin başçısının Azərbaycan Ordusuna yüksək diqqət və qayğı göstərdiyini vurğulayan müdafiə naziri bildirib ki, ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi və milli təhlükəsizlik tədbirlərinin daha da artırılması üçün 1 milyard 105 milyon manat, o cümlədən xüsusi müdafiə təyinatlı layihələr və tədbirlər üzrə xərclər üçün 1 milyard manat əlavə edilməsi orduda aparılan islahatlar çərçivəsində yeni müasir silah və hərbi texnikanın alınmasına imkan verəcəkdir.

Sonra Azərbaycan-Ermənistan şərti sərhədi və Qarabağ iqtisadi rayonundakı əməliyyat şəraiti təhlil edilib.

Son vaxtlar Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin hərbi daşımaları həyata keçirməsi, bölmələrimizin mövqelərinin qarşısında uzunmüddətli fortifikasiya qurğularını quraşdırmağa cəhd göstərməsi, eləcə də Ağdam, Tərtər və digər rayonlar istiqamətlərində ordumuzun mövqelərini atəşə tutması nəticəsində yarana biləcək gərginlik xüsusi vurğulanıb.



Müdafiə naziri qeyri-qanuni erməni silahlı birləşmələrinin fəaliyyətlərinin fasiləsiz müşahidəsi bundan sonra da davam etdirilməsi, eləcə də törədilə biləcək istənilən təxribatın qarşısının dərhal və qətiyyətlə alınmasına daim hazır olmaq barədə konkret tapşırıqlar verib.

Nazir, həmçinin hərbi qulluqçuların bilik və bacarıqlarının artırılması, bölmələrin döyüş qabiliyyətinin daha da yüksəldilməsi məqsədilə keçirilən döyüş hazırlığı tədbirlərində müasir döyüş üsulları, arsenala yeni daxil edilən silah və hərbi texnikanın effektiv tətbiqi qaydalarının şəxsi heyətə öyrədilməsinin vacibliyini vurğulayıb.

General-polkovnik Zakir Həsənov xidməti-döyüş fəaliyyəti zamanı təhlükəsizlik qaydalarına ciddi əməl edilməsini, bu qaydaların müntəzəm olaraq şəxsi heyətə çatdırılmasını, həmçinin onlara riayət olunmasına daim nəzarət edilməsini tapşırıb.

Sonda qoşun xidmətinin təşkili, xidməti və sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması, həmçinin mühəndis və tibbi təminat üzrə zəruri tədbirlərin davam etdirilməsi ilə əlaqədar vəzifəli şəxslər qarşısında konkret tapşırıqlar qoyulub.

# Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# İsrailin müasir müdafiə sənayesi avadanlıqları bizə müdafiə qabiliyyətimizi müasirləşdirməyə kömək edir



İsrail Dövlətinin Prezidenti İsxak Hersoq mayın 30-da Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

İsrail Prezidenti İsxak Hersoqu və xanımı Mixal Hersoqu Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Fariz Rzayev və digər rəsmi şəxslər qarşılayıblar.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İsrail Dövlətinin Prezidenti İsxak Hersoq ilə təkbətək görüşü olub.

Görüşdə Azərbaycanla İsrail arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə olunub, İsxak Hersoqun ölkəmizə səfərinin əlaqələrimizin genişlənməsi işinə töhfə verəcəyi vurğulanıb.

Söhbət zamanı əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İsrail Dövlətinin Prezidenti İsxak Hersoqun geniş tərkibdə görüşü keçirilib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İsrail Dövlətinin Prezidenti İsxak Hersoqun iştirakı ilə "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə İsrail Dövlətinin Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmi sahələrində 2023-2028-ci illər üçün Əməkdaşlıq Planı" imzalanıb.

Sənədi Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayev və İsrail Dövlətinin daxili işlər və səhiyyə naziri Moşe Arbel imzalayıblar.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İsrail Dövlətinin Prezidenti İsxak Hersoq mətbuata bəyanatlarla çıxış ediblər.

Əvvəlcə Azərbaycan Prezidenti bəyanatla çıxış edib.

### Prezident İlham Əliyevin bəyanatı

- Hörmətli, cənab Prezident.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

Cənab Prezident, ölkəmizə xoş gəlmisiniz. Sizi Azərbaycanda qəbul etmək imkanına malik olduğuma görə çox şadam. Sizin səfəriniz ölkələrimiz arasında sıx tərəfdaşlıq əlaqələrini nümayiş etdirir. Əminəm ki, səfər bizim ikitərəfli əlaqələrimizi gücləndirəcək. Aramızda çox fəal siyasi dialoq var və biz cənab Prezidentlə telefonla əlaqə saxlayırıq. İndi isə, əlbəttə ki, rəsmi səfər zamanı bizim ikitərəfli gündəliyimizdə duran önəmli məsələləri müzakirə etmək üçün daha çox imkanımız var. Bu il İsraildə Azərbaycan səfirliyinin açılması, əlbəttə ki, əlaqələri daha yüksək səviyyəyə qaldıracaq və eyni zamanda, daha sıx qarşılıqlı əməkdaşlıq üçün geniş imkanlar yaradacaq.

Bəzi iqtisadi rəqəmlərə nəzər salarkən gördüm ki, ticarət dövriyyəmiz 1,7 milyard ABŞ dollarından çoxdur, bu da böyük məbləğdir. Lakin, hesab edirəm ki, növbəti illərdə biz ticarət dövriyyəsini şaxələndirməyə çalışmalıyıq və ümid edirəm ki, həyata keçiriləcəyini planlaşdırdığımız birgə layihələr nəticəsində bizim daha balanslaşdırılmış ticarət dövriyyəmiz olacaq və o, təkcə enerji amilindən asılı olmayacaq. Buna baxmayaraq, uzun illərdir ki, Azərbaycan İsrailə xam neftin etibarlı təchizatçısı olmaqda davam edir və bu da, əslində, enerji sahəsində sıx əməkdaşlığı nümayiş etdirir.

Bu gün müzakirələr zamanı biz, həmçinin enerji sahəsində əməkdaşlığın necə genişləndirilməsi məsələsini də müzakirə etdik. Çünki biz investisiya layihələri, interkonnektorların yaradılması və üçüncü ölkələrdə potensial əməkdaşlıq layihələri üçün böyük imkanlar görürük.

Biz, həmçinin irriqasiya və kənd təsərrüfatı sahəsində planlarımızı və artıq görülmüş işləri müzakirə etdik. İsrailin bu sahədə böyük nailiyyətlərindən bizim xəbərimiz var və biz kənd təsərrüfatında məhsuldarlığı artırmaq üçün bu müsbət təcrübədən istifadə etmək və ixrac bazarımızı şaxələndirmək istəyirik.

Nisbətən bu yaxınlarda əməkdaşlığa başladığımız sahələrdən biri kibertəhlükəsizlik sahəsidir. Bu sahədə fəal təmasların başlanılmasına çox şadıq. Bu gün artıq sirr deyil ki, kibertəhlükəsizlik hər bir ölkənin milli təhlükəsizliyinin mühüm hissəsidir. Əlbəttə ki, bu sahədə İsrail şirkətlərinin böyük təcrübəsi bizim üçün faydalı olacaq. Həmçinin gənc nəslin təlimi və tədrisi də məqsədlərimizə nail olmaq və özümüzü təhlükədən qorumaq üçün mühüm amil olacaq.

Təhdidlərdən danışarkən, həmçinin müdafiə sənayesi sahəsində uzunmüddətli əməkdaşlığı məmnuniyyətlə qeyd etmək istəyirəm. Azərbaycanın uzun illərdir ki, bu sahədə İsrailin müasir avadanlığına çıxışı var, bu da bizə müdafiə qabiliyyətimizi müasirləşdirməyə kömək edir və dövlətçiliyimizi, əsas dəyərlərimizi, milli maraqlarımızı və ərazi bütövlüyümüzü müdafiə etməyə imkan yaradır.

Bu gün biz, həmçinin qarşılıqlı turist axını səviyyəsinin necə qaldırılmasını da müzakirə etdik. Həftədə yalnız dörd reys var və hesab edirəm ki, bu, yetərli deyil. Nümayəndə heyətlərinin üzvlərinə uçuşların sayının artırılması ilə bağlı göstərişlər verilmişdir və bunun təkcə mövsümi əsasda yox, - çünki adətən yay vaxtlarında daha çox uçuşlar olur, - daimi əsasda edilməsi tapşırılmışdır. Həmçinin İsraildə daha çox təqdimat imkanlarının araşdırılması da tapşırılmışdır ki, biz İsraildən daha çox turisti buraya dəvət edə bilək və əsrlər boyu Azərbaycanda yaşayan yəhudi icması haqqında daha çox məlumat verə bilək. Bu, bizim ölkənin böyük dəyəridir, yəhudi icmasının üzvləri - Azərbaycan vətəndaşları ölkəmizin müasir inkişafına çoxlu töhfə vermiş və töhfə verən insanlardır. Onlar bizim müstəqilliyimiz və ərazi bütövlüyümüz uğrunda bizimlə və bütün digər azlıqların nümayəndələri ilə çiyin-çiyinə vuruşublar. Bu gün bu, təkcə Azərbaycanın uğurlu inkişafı, mədəniyyətlərarası sülh və dostluq üçün yox, eyni zamanda, bizim ikitərəfli münasibətlərimiz üçün mühüm amildir. Bilirəm ki, İsraildə yaşayan azərbaycanlılar ölkələrimiz arasında körpülərin qurulmasında mühüm rol oynayırlar. Bizim dünya azərbaycanlılarının diaspor təşkilatları var, lakin yalnız bir ölkədə, İsraildə bu təşkilat əsasən yəhudi mənşəli insanlardan ibarətdir. Bu, aramızda heç bir fərqin, heç bir bölgünün olmadığını nümayiş etdirir. Bizim əsrlər boyu davam edən qarşılıqlı əlaqələr, dostluq və qarşılıqlı dəstək tariximiz var. Müstəqil ölkə olaraq Azərbaycanın, sadəcə, 31 yaşı var, lakin bizim qədim tariximiz var və Azərbaycandakı yəhudilər həmişə cəmiyyətimizin fəal və mötəbər hissəsi olmuşlar və bu gün də belə olmaqda davam edirlər. Beləliklə, bu, ölkələrimiz arasında belə deyək, mədəni körpülərdir. Buna görə onların bizim ikitərəfli strateji əməkdaşlığımıza töhfəsi çox vacibdir.

Bizim gündəliyimiz, həqiqətən də, genişdir. Mətbuat konfransı üçün vaxtımız məhduddur, əks halda ikitərəfli əməkdaşlığımızın geniş gündəliyi haqqında saatlar ərzində danışardıq. Əlbəttə ki, nümayəndə heyətlərinin üzvləri bu gün və sabah daha sıx qarşılıqlı əlaqədə olacaqlar.

Yekunda mən bir daha cənab Prezidentə dəvətimi qəbul etdiyinə və Azərbaycanı rəsmi səfərlə ziyarət etdiyinə görə təşəkkürümü ifadə etmək istəyirəm. Ona və İsrail xalqına sülh, uğur və çiçəklənmə, Azərbaycanda yaxşı vaxt keçirməyi arzu etmək istəyirəm. Bir daha xoş gəlmisiniz, cənab Prezident.

* * *

Sonra İsrail Prezidenti bəyanatla çıxış edib.

### Prezident İsxak Hersoqun bəyanatı

- Təşəkkür edirəm, cənab Prezident.

Azərbaycana səfər etmək mənim üçün və millətim üçün həyata keçən arzudur. Bu səfər İsrail xalqı üçün və Azərbaycan xalqı ilə İsrail xalqı arasında birgə əlaqələr baxımından böyük əhəmiyyət kəsb edir.

Cənab Prezident, qonaqpərvərliyinizə, dəvətinizə görə təşəkkür edirəm. Mən bunun qarşılığında Sizi və birinci xanımı İsrailə dövlət səfərinə dəvət etmək istərdim. Bu, əsası mərhum məşhur atanız tərəfindən qoyulmuş və illər ərzində inkişaf etmiş heyrətamiz əlaqələrimizin ifadəsi olar. Prezident Əliyev, dövlətinizi qurub və Siz son bir neçə ildə onu genişləndirərək inkişaf etdirmisiniz.

Bizim əlaqələrimizin dərin kökləri var. Yəhudilərin bu ölkədəki irsinin kökləri, yeri gəlmişkən, özlüyündə nümunə olan nadir irsi və yəhudi icmalarının 120-130 il əvvəl meydana gəlməsi ilə Azərbaycanın dünyada yazdığı hekayəsinə öz böyük töhfəsini verib. Sülh, ümumi rifah, yaxşı işlərə dair birgə strateji baxışımızla birlikdə, yəhudilərlə müsəlmanlar arasında səmərəli, ədalətli, səmimi, dostcasına dialoq, bizim arzulaya və nümayiş etdirə biləcəyimiz bir baxışdır.

Sirr deyil ki, ölkəniz əhalisinin əksəriyyəti şiələr olan müsəlman ölkəsidir. Buna baxmayaraq, millətlərimiz arasındakı sevgi və bağlılıq dünyanı necə dəyişdirə biləcəyimizin və irəli gedə biləcəyimizin nümunəsidir. İndicə səhiyyə nazirlərimiz arasında şahidi olduğumuz mərasim, cənab Prezident, Sizin qeyd etdiyiniz kimi, əməkdaşlıq üçün nə qədər məsələ və sahənin olmasının daha bir nümunəsi və təcəssümüdür.

Bizim ortaq baxışımız var, mən Azərbaycanın dünyada və regionda böyük təsirə malik olduğunu görürəm. Siz mənə Azərbaycanın Avropanın enerji sektoruna, ümumilikdə regiona, Asiyaya, sözsüz ki, bizimlə əlaqəli Yaxın Şərqə təsiri barədə danışdınız. Biz İranın təhlükə və təhdid yaratdığı qlobal, regional təhlükəsizlik strukturuna nəzər saldıq, bu məsələni dərindən müzakirə etdik. Əlbəttə ki, biz elm, kənd təsərrüfatı və cənab Prezident, giriş nitqində qeyd etdiyiniz bir çox sahələrdə əməkdaşlığı inkişaf etdirmək imkanlarımızı səbirsizliklə gözləyirik.

Mən bu möhtəşəm an üçün Sizə səmimi-qəlbdən minnətdarlığımı bildirmək istəyirəm. Biz İsrailin müstəqilliyinin 75 illiyini, eyni zamanda, dövlətlərimiz arasında çox güclü əlaqələrimizin 30 illiyini qeyd edirik. Əminəm ki, mənim və nümayəndə heyətimin bu səfəri əlaqələrimizin daha da inkişafı baxımından bir mərhələ olacaq. Təşəkkür edirəm, bizim dediyimiz kimi, şalom, cənab Prezident.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın adından İsrail Dövlətinin Prezidenti İsxak Hersoq və birinci xanım Mixal Hersoqun şərəfinə rəsmi lanç verilib.

* * *

Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva və İsrail Dövlətinin birinci xanımı Mixal Hersoq Qala Arxeoloji-Etnoqrafik Muzey Kompleksində olublar.

Ziyarət zamanı kompleks və Qala kəndinin qədim tarixi barədə məlumat verilib.

* * *

Azərbaycanda rəsmi səfərdə olan İsrail Dövlətinin Prezidenti İsxak Hersoq və xanımı Mixal Hersoq mayın 30-da Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad ediblər.

İsrail Prezidenti Ulu Öndərin məzarı önünə əklil qoyub.

Sonra görkəmli oftalmoloqalim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla anılıb, məzarı üzərinə tər güllər düzülüb.

* * *

İsrail Dövlətinin Prezidenti İsxak Hersoq və xanımı Mixal Hersoq Bakıda Şəhidlər xiyabanını ziyarət ediblər.

Şəhidlər xiyabanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

İsrail Prezidenti "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestrinin ifasında İsrailin və Azərbaycanın Dövlət Himnləri səsləndirilib.

Sonda Bakının ən hündür nöqtəsindən paytaxtımızın mənzərəsini seyr edən İsrail Prezidentinə və xanımına Şəhidlər xiyabanının tarixi və şəhərdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

* * *

Azərbaycan Respublikasında rəsmi səfərdə olan İsrail Dövlətinin Prezidenti İsxak Hersoq və xanımı Mixal Hersoq mayın 30-da Heydər Əliyev Mərkəzində olublar.

Mərkəzin direktoru Anar Ələkbərov İsrail Dövlətinin Prezidenti İsxak Hersoqa dünya memarlığının nadir incilərindən sayılan Heydər Əliyev Mərkəzi haqqında məlumat verib.

* * *

İsrail Dövlətinin Prezidenti İsxak Hersoqun Azərbaycan Respublikasına rəsmi səfəri mayın 31-də başa çatıb.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

İsrail Prezidenti İsxak Hersoqu və xanımı Mixal Hersoqu Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Fariz Rzayev və digər rəsmi şəxslər yola salıblar.

**AZƏRTAC-ın materialları əsasında**

# Hərbi institutda respublika elmi-praktik konfransı keçirilib

*Heydər Əliyev adına Hərbi İnstitutda Ulu Öndərin anadan olmasının 100 illiyinə həsr olunmuş "Azərbaycan Respublikasının inkişaf strategiyası: potensial imkanlar və yeni çağırışlar" mövzusunda respublika elmi-praktik konfransı keçirilib.*







Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, konfransda Heydər Əliyev adına Hərbi İnstitutun zabit, professor-müəllim heyəti ilə bərabər, Müdafiə Nazirliyinin, Hərbi Elmi-Tədqiqat İnstitutunun, AMEA İdarəetmə Sistemləri İnstitutunun, Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının, Heydər Əliyev Mərkəzinin, Fövqəladə Hallar Nazirliyinin Akademiyasının, Dövlət Gömrük Komitəsinin Akademiyasının, Daxili Qoşunların Ali Hərbi Məktəbinin, Dövlət Sərhəd Xidməti Akademiyasının, Azərbaycan Dövlət Dəniz Akademiyasının, Milli Aviasiya Akademiyasının, Bakı Avrasiya Universitetinin, Azərbaycan Universitetinin, Azərbaycan Dövlət Pedaqoji Universitetinin, Azərbaycan Dillər Universitetinin, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin, Azərbaycan Texniki Universitetinin, Qərbi Kaspi Universitetinin, Bakı Biznes Universitetinin, Azərbaycan Kooperasiya Universitetinin, Azərbaycan Memarlıq və İnşaat Universitetinin, "CBM Engineering" MMC-nin nümayəndələri iştirak ediblər.

Əvvəlcə hərbi institutun qərargahı qarşısında ucaldılan dahi lider Heydər Əliyevin abidəsi ziyarət olunaraq qarşısına qızılgüllər qoyulub. Azərbaycan xalqının Ümummilli Liderinin və Azərbaycanın suverenliyi, müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Heydər Əliyev adına Hərbi İnstitutun rektoru general-mayor Fizuli Salahov konfrans iştirakçılarını salamlayaraq "Heydər Əliyev və ordu quruculuğu" mövzusunda məruzə ilə çıxış edib.

Sonra Ulu Öndərin həyat və fəaliyyətinə həsr edilmiş videofilmin təqdimatı olub.

Konfransda çıxış edənlər Heydər Əliyev və ordu quruculuğu, onun əsasını qoyduğu müasir Azərbaycanın inkişaf strategiyası, təhsil, elm, iqtisadi, hərb sahəsindəki inkişaf dinamikası barəsində fikirlərini iştirakçıların diqqətinə çatdırıblar.

Qeyd edilib ki, konfransın əsas məqsədi Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan Azərbaycan Respublikasının inkişaf strategiyasının müxtəlif istiqamətlərinin, inkişaf dinamikasının, o cümlədən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin Azərbaycan Ordusu qarşısında qoyduğu tələblərə müvafiq olaraq ordu quruculuğunda yeni yanaşmaların və perspektivlərin elmi-nəzəri əsaslarının öyrənilməsindən ibarətdir.

Konfrans plenar iclasdan sonra beş bölmə üzrə işini davam etdirib, iştirakçıların maraqlı elmi məruzələri dinlənilib və müzakirələr aparılıb.

Sonda xatirə şəkli çəkdirilib.

# Əlahiddə Ümumqoşun Orduda birləşmə və hissələrlə növbəti komanda-qərargah təlimi keçirilib



*2023-cü tədris ilinin hazırlıq planına uyğun olaraq, Əlahiddə Ümumqoşun Orduda birləşmə və hissələrlə növbəti komanda-qərargah təlimi keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, təlim birləşmə, hissə və bölmələrin müxtəlif döyüşə hazırolma dərəcələrinə gətirilməsi üçün təlim döyüş həyəcan siqnalı ilə qaldırılaraq təyinat rayonlarına çıxarılmaqla başlanılıb. Cəmləşmə rayonlarında düşmənin pilotsuz uçuş aparatlarına qarşı mübarizə, maskalanma, müdafiə və mühafizə tədbirlərinin yerinə yetirilməsi sualları məşq etdirilib.

Təlimdə qarşıya qərargahlar tərəfindən əməliyyatların planlaşdırılması, əməliyyatların gedişində komandirlər tərəfindən mürəkkəb şəraitdə qərarların qəbul edilməsi, tabelikdəki bölmələrin idarə olunması və motoatıcı bölmələrlə digər qoşun növü bölmələri arasında qarşılıqlı əlaqənin saxlanılması üzrə zabitlərin bacarıqlarının təkmilləşdirilməsi və praktiki vərdişlərinin artırılması kimi məqsədlər qoyulmuşdur.

Təlimin növbəti mərhələsində yaranmış taktiki şəraitə uyğun olaraq vəziyyət qiymətləndirilməsi aparılıb, tabelikdə olan birləşmə, hissə və bölmələrin tapşırıqları dəqiqləşdirilib. Planlaşdırmanın gedişində qərargahlar tərəfindən taktiki hesabatlar aparılıb və zəruri məlumatlar hazırlanıb. Müxtəlif rabitə və avtomatlaşdırılmış idarəetmə sistemlərindən istifadə etməklə hissə və bölmələrin idarə olunması üzrə sərəncamların və qrafiki sənədlərin göndərilməsi praktiki olaraq həyata keçirilib.

Təlimə cəlb olunan artilleriya, tankələyhinə, hava hücumundan müdafiə bölmələrinin ümumqoşun birləşmələri ilə birgə fəaliyyətləri məşq etdirilib. Əsas diqqət bölmələrin dağlıq ərazidə fasiləsiz idarəolunmasına, qarşılıqlı fəaliyyətin və hərtərəfli təminatın təşkilinə yönəldilib.



Təlimin gedişində artilleriya bölmələrinin atəş dəstəyindən faydalanan mexanikləşdirilmiş bölmələr şərti düşmənin canlı qüvvəsinin və döyüş texnikalarının məhv edilməsi üçün taktiki tapşırıqları icra ediblər.

Komanda-qərargah təliminin sonuncu mərhələsində qəbul edilmiş qərarların və aparılmış hesabatların reallığı Simulyasiya Mərkəzində kompüterlər üzərində yoxlanılıb.

Təlimin sonunda icra edilmiş fəaliyyətlərin təhlili aparılan zaman bölmələr arasında uzlaşmış fəaliyyətlərə nail olunduğu, silah və döyüş texnikasının, eləcə də müasir silah sistemlərinin və texniki vasitələrin tətbiqində uğur qazanıldığı qeyd edilib.





## NATO-nun nümayəndə heyəti ilə ikitərəfli görüş keçirilib




Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində NATO-nun Tərəfdaşlar üçün hazırlanmış Fərdi Tərəfdaşlıq və Planlaşdırma və Analiz Prosesi (ITPP-PARP) proqramları çərçivəsində Azərbaycan Ordusunun hərbi qulluqçuları ilə NATO-nun bu proqram üzrə ekspertləri arasında ikitərəfli işçi görüşü keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin rəisi general-mayor Hüseyn Mahmudov görüşdə qonaqları salamlayaraq Azərbaycan və NATO arasında əlaqələrin inkişaf etdiyini, eləcə də Azərbaycan Ordusunun nümayəndələrinin NATO-nun müxtəlif proqramları çərçivəsində fəal iştirakını qeyd edib.

Görüşdə təcrübə mübadiləsi baxımından bu cür tədbirlərin və qarşılıqlı səfərlərin əhəmiyyəti xüsusi vurğulanıb.

Sonda ikitərəfli əlaqələrin cari vəziyyəti və inkişaf perspektivləri, qarşılıqlı maraq doğuran digər məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

## Qazaxıstanlı nümayəndə heyəti ölkəmizdə səfərdədir





*Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında imzalanan 2023-cü il üçün ikitərəfli hərbi əməkdaşlıq proqramına uyğun olaraq Qazaxıstan Respublikası Müdafiə Nazirliyinin bir qrup nümayəndə heyəti ölkəmizdə səfərdədir.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, səfər çərçivəsində qonaqlar Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzini, Hərbi İdarəetmə İnstitutunun Hərb Oyunları Mərkəzini ziyarət ediblər. Nümayəndə heyətinə mərkəzlərin tarixi və fəaliyyəti barədə geniş brifinq təqdim olunub. Qonaqlar burada yaradılan şərait ilə tanış olub, keçirilən tədris prosesini izləyiblər.

Sonra qazaxıstanlı nümayəndələr Əməliyyat (Komando) hərbi hissələrinin birinə gəliblər. Qonaqlara hərbi hissənin döyüş yolu və şəxsi heyətin hazırlıq prosesi haqqında ətraflı brifinq təqdim edilib.

Nümayəndə heyəti burada hərbi qulluqçular üçün yaradılan şərait və döyüş texnikası ilə tanış olub, hərbi hissənin təlim mərkəzində komandoların nümunəvi çıxışlarını izləyiblər.

## “Şuşa sevgim ordumuza sevgidir”

*Vətən kəlməsi insanda daha dərin və əziz hisslər oyadır. Vətənə məhəbbət dövlətə, dövlətçiliyə, xalqa məhəbbətdir. Hər sadə, mürəkkəb cümləsinin əzəl mübtədası Vətən olanlar üçün Vətənə görə hər cür fədakarlığa hazır olmaq yaşam fəlsəfəsidir.*




Vətənpərvərlik - məhəbbətdir, Vətənə məhəbbətdir, ülvi məhəbbətdir, müqəddəsliyə müqəddəs məhəbbətdir. Qəhrəmanlığı şərtləndirən ilkin amil Vətənə sevgidir. Hansı məqalədəsə oğlunu hərbi xidmətə yola salan bir ananın öyüdünü oxumuşdum: Get Vətəni qoru. Vətənsiz sən nəyə lazımsan, mən nəyə lazımam, biz nəyə lazımıq. Oğullar getdilər Vətəni qorudular, torpaqlarımızı işğaldan azad etdilər.

Fədakarlar, qəhrəmanlar, məğlubedilməzlər Vətən müharibəsində tarixi Zəfər qazandı. Düşmənlə döyüşənlər də şücaətli idi, döyüşənlərin döyüş əzmini, qələbə ruhunu kükrədən xalq da. O vaxtlar bir ifadə eşitmişdim: Xalqın qələbə istəyi də əsgərdi!..

Polkovnik Firudin Əzizov da Vətəni belə sevənlərdəndir...

Firudin Novruz oğlu Əzizov 27 may 1975-ci ildə Cəlilabad rayonunda vətənpərvər bir ailədə dünyaya göz açıb. Babası Böyük Vətən müharibəsi iştirakçısı olub. Orden və medallarla təltif olunan Abbas kişi iştirakçısı olduğu ağır döyüşlərdən, yaralanmasından, Vətəndən, Vətən sevgisindən danışardı. Övladlarına da, nəvələrinə də, tədbirlərdə gənclərə də söhbət açardı. Bu söhbətlər vətənpərvərlik dərsləri idi. Hər söhbət dinləyənin duyğularını Vətənə daha incəliklə bağlayırdı. Novruz kişi də, qardaşları da sovet ordusunda hərbi xidmətdə olmuşdular, xidmətlərini Birinci Qarabağ müharibəsində müstəqil Azərbaycanın Ordusunda davam etdirmişdilər. Firudin Novruz oğlu belə bir ailədə görüb-götürmüşdü...

Əzizovun timsalında bir daha təsdiq olunur ki, vətənpərvərlik soydan, kökdən gəlir.

Bu sevgi, bu istəklə də Firudin Əzizov 1992-ci ildə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbinə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) daxil olub. Polkovnik deyir ki, "1992-ci ilin dekabrında Ümumqoşun fakültəsinin birinci kursunun şəxsi heyətindən ibarət tabor yaradıldı. Bu tabor döyüş tapşırığını yerinə yetirmək üçün Ağdam rayonunun Mərzili, Novruzlu və Qarakənd istiqamətinə göndərildi. Taborumuz döyüş tapşırığını itkisiz yerinə yetirdi. Bu döyüşlər xatirimdə həm kursant kimi iştirak etdiyim ilk döyüş kimi qalır, həm də atamla birlikdə döyüşdüyüm döyüş kimi... 1994-cü ildə Murovdağ istiqamətində gedən döyüşlərdə də verilən döyüş tapşırıqlarını layiqincə yerinə yetirdik".

31 illik xidmətinin 21 ilini ön xətt hərbi hissələrində xidmət edən polkovnik deyir: "Bütün əmr və tapşırıqları yüksək səviyyədə yerinə yetirmək iqtidarında olan ordumuz bu gün dünyanın inkişaf etmiş orduları ilə eyni səviyyədədir. Müasir hərb elminin tələbləri baxımından daha yüksək səviyyədə formalaşan bu güclü ordu Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin başladığı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uğurla davam etdirdiyi müdrik siyasət nəticəsində daha da möhkəmlənir, mətinləşir, döyüş qabiliyyətini artırır."...

İkinci Qarabağ müharibəsi ərəfəsində ön xətdə yerləşən hərbi hissəyə komandirlik edən zabit 2020-ci ilin ortalarından başlayaraq düşmən tərəfdə müşahidə edilən hərəkətlilik haqda yuxarı komandanlığa məlumat verib. Az sonra düşmən sentyabrın 26-da Alıxanlı, 27-də səhər saat 5-6 radələrində Şükürbəyli yaşayış məntəqələrini və döyüş mövqelərimizi artilleriya atəşinə tutub, mülki vətəndaşlar arasında yaralananlar olub. Ali Baş Komandanın əmri ilə sentyabrın 27-də səhər saatlarında əks-hücum əməliyyatı başlayıb. İkinci Qarabağ müharibəsinin başlanması polkovnik Firudin Əzizovun yaddaşında tarix olaraq belə qalıb...

Onun rəhbərlik etdiyi hərbi hissə Füzuli, Cəbrayıl, Xocavənd, Hadrut və Şuşaya kimi döyüş yolu keçib, verilən hərbi əmrləri uğurla yerinə yetirib.

Vətən müharibəsində bəzi yaralılar döyüş meydanından çıxmaq istəmirdilər. Tibb məntəqələrində müalicə olunan yaralının sanki ürəyi də, ruhu da döyüş meydanında, yoldaşlarının yanında qalırdı. Bütün yaralılar tezliklə sağalaraq döyüşlərə qayıtmağa tələsirdilər. Polkovnik Firudin Əzizov oktyabrın 2-də Böyük Mərcanlı, Çaxırlı, Mehdili və Aşağı Maralyan kəndlərinin azad edilməsi uğrunda gedən döyüşlərdə yaralansa da, döyüş meydanında ilkin tibbi yardım alaraq döyüşü davam etdirib.

- Oktyabrın 7-də saat 10 radələrində düşmən Horadiz kəndinə 21 tank, 15 PDM, 22 avtotexnika və yüzlərlə canlı qüvvə ilə hücum etdi. Vaxtında məlumat verildiyinə görə Hadrut, Horadiz, Cəbrayıl yolunu bağlayaraq düşmənin hücumunun qarşısı alındı, düşmənin hücum edən hissələri darmadağın edildi. Ağır itkilərə məruz qalan düşmən silah-sursatlarını qoyaraq qaçdı. Düşməndən qənimət olaraq götürülən silah və texnikaların onların özünə qarşı istifadə edilməsi Azərbaycan əsgərinin döyüş ruhunu daha da artırdı.

Vətən müharibəsi Azərbaycan dövlətinin, dövlətçiliyinin, Azərbaycan əsgərinin gücünü, Ali Baş Komandanın sərkərdəlik qüdrətini nümayiş etdirdi.

- Hərbi əməliyyatlar çox sürətlə gedirdi. 30 ilə yaxın müddətdə işğalda qalan torpaqlar azad edilirdi. Yüksək döyüş hazırlığına malik olan ordumuz buna qadir idi. Ən ağır döyüşlərimiz Aşağı Əbdürrəhmanlı kəndi istiqamətində oldu. Nə qədər ağır olsa da, düşmənin müdafiə xəttini yararaq 14 dəqiqədən sonra şəxsi heyət ikinci posta bayraq sancdı. Düşmən rəşadətli ordumuzun sarsıdıcı zərbələri ilə darmadağın oldu. Bu döyüşlər də tarixdir.

Ordumuzun azad etdiyi torpaqlarımız şəhidlərimizin qanı ilə müqəddəsləşib. Çiyin-çiyinə döyüşdüyün yoldaşının şəhid olması nə qədər çətindirsə, düşməndən onun qisasını almaq bir o qədər şərəflidir.

Şəhidləri kövrəkliklə xatırlayan polkovnik Əzizov qeyd etdi ki, şəhidlik mənəviyyat, əbədiyyət zirvəsidir. Bu zirvəyə Vətən, millət, dövlət yolunda ölümün gözlərinin içinə dik baxanlar, üzərinə yürüyə bilənlər ucalır. Ağır döyüşlərdə çiyin-çiyinə döyüşdüyüm Vətən Müharibəsi Qəhrəmanı şəhid polkovnik-leytenant Faiq Qasımov Birinci Qarabağ müharibəsinin və Aprel döyüşlərinin iştirakçısı idi. Şəhid mayor Elçin Mansurov təkidlərə baxmayaraq 12 saat yaralı halda döyüşdü. Cəsarəti, qorxubilməzliyi dillərə dastan olan tank bölməsinin komandiri baş leytenant Azad Hümbətov Füzulinin Yuxarı Yarlıvənd kəndində şəhid oldu...

Şəhidi olmayan xalqın kimliyi bilinməz, azadlığı şəhidliklə qazanmayan xalq azadlığın qədrini bilməz. Hərbi hissənin şəhidləri Vətən Müharibəsi Qəhrəmanı adı ilə, müxtəlif orden və medallarla təltif olunublar.

Şuşanın işğaldan azad edilməsində iştirak edən polkovnik Firudin Əzizov "Bu müqəddəs torpağa ayaq basarkən yaşadığım sevincə qarışan kövrəkliyi izah etməyə sözlər yetərsizdir", - deyir. - Başı qarlı, vüqarlı dağları ilə əzəmətli görünən Şuşanı azad edən rəşadətli ordunun zabiti olmaq qürurvericidir.

Birinci Qarabağ və Vətən müharibəsinin iştirakçısı olan polkovnik hər iki müharibədən danışaraq dedi ki, Vətən müharibəsi Birinci Qarabağ müharibəsi ilə müqayisə olunmayacaq dərəcədə fərqli idi. Belə ki, Birinci Qarabağ müharibəsində ölkədə hökm sürən hərc-mərclik, xaos və vahid komandanlığın olmaması 20 faiz torpaqlarımızın işğal olunması ilə nəticələndi. Vətən müharibəsində qazanılmış qələbədə milli həmrəylik amilinin yeri və rolu müstəsnadır. Daha dəqiq desək, dövlət-xalq-ordu birliyi Azərbaycanın tarixi qələbəsinin əsasında duran ən mühüm amil oldu. Bu müharibələrin tək oxşar cəhəti Azərbaycan oğullarının Vətən sevgisi, qorxmazlığı, mərdliyi idi...

Polkovnik Firudin Əzizov Vətən müharibəsində göstərdiyi şücaətə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən "Rəşadət" ordeni, "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif olunub.

Yaşadığımız günlər Azərbaycan tarixinin ən şərəfli günləridir. Xoşbəxtik ki, Azərbaycan tarixinin məhz bu dövründə yaşamaq bizə nəsib olub. Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin sərkərdəliyi ilə rəşadətli Azərbaycan Ordusunun xalqımıza bəxş etdiyi möhtəşəm Qələbənin sevincini hər bir soydaşımız böyük qürur hissi ilə yaşayır. Tarixin səhifələrinə qızıl hərflərlə həkk olunan bu tarixi Zəfər haqqında əsrlər sonra da iftixarla danışılacaqdır...

Polkovnik Firudin Əzizov qürurla deyir ki, Şuşa sevgim ordumuza sevgidir...

**Kapitan**
**Günay TAĞIYEVA**
**"Azərbaycan Ordusu"**

# Uşaq dünyasından böyük dünyaya düşən işıq

***Ermənistan işğalçı dövlət idi, müharibəni həm də faşist ideologiyasına əsaslanan ermənilıklə aparırdı. İşğal etdiyi kəndlərdə mülki əhalini qətlə yetirirdi, əsir aparırdı, evləri dağıdırdı, yandırırdı. Qocaları da, uşaqları da öldürürdü. 1991-ci il dekabrın 23-də Meşəli faciəsində 3 uşaq öldürülmüşdü. 1992-ci il fevralın 14-də Qaradağlıda 8 məktəbli qətlə yetirilmişdi. 1992-ci il fevralın 26-da Xocalıda 63 uşağın ömrünə vəhşiliklə son qoyulmuşdu. Budur, ermənilik!***

***Ermənilərin törətdiklərini gənclər də bilir, uşaqlar da. Uşaqlar məktəbdə müəllimlərindən eşidir, ailədə valideynlərindən. Bu faciələr haqqında hərbçilərin uşaqları da eşidirlər, eşitdiklərini yaddaşlarına köçürürlər. Uşaqların qətlə yetirilməsi onların uşaq dünyasının dumanlığına dönür...***

***Bu günün məktəbliləri müharibə illərinin uşaqları olub, yaxın gələcəkdə məktəblilərə İkinci Qarabağ müharibəsi haqqında onlar da danışacaqlar. Təkcə Uşaqların Beynəlxalq Müdafiəsi Günündə deyil, tarixin yaşaması üçün həmişə danışacaqlar.***

***"N" hərbi hissəsində xidmət edən zabitlərin uşaqları da Vətəni sevə-sevə böyüyürlər, böyüyə-böyüyə Vətəni sevirlər. Müharibənin nə olduğunu onlar da yaxşı bilirlər. Onlar da Zəfərdən, Zəfərin necə qazanılmasından, Zəfəri qazananlardan qürurlanırlar.***

***1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günündə hərbi şəhərcikdə yaşayıb Beyləqandakı 8 saylı tam orta məktəbdə təhsil alan uşaqların dediklərini uşaq dünyasından böyük dünyaya düşən işıq bilirik...***

"Azərbaycan Ordusu"

**Nərmin Şirinli** (5-ci sinif şagirdi):

- Atam polkovnik-leytenantdır. Vətən müharibəsində o da iştirak edib. Xidmətdən evə gələndən sonra mənim də, özünün də vaxtı olanda müharibədən, döyüşlərdən də danışır. Maraqla dinləyirəm. Bir əsgərin yaralı əsgəri necə xilas etdiyini, onu xilas edəndə özünün şəhid olduğunu eşidəndə kövrəlmişdim. Atam saçlarımı ox-




şamışdı, "Zəfər həm də əsgərlərin şücaəti ilə qazanıldı", - demişdi. Televizorda baxdığım verilişlər də, atamın, atamın dostlarının müharibədən danışdıqları da Vətən sevgimizi daha da artırır. Mən bütün hərbçiləri qəhrəman bilirəm.

İkinci Qarabağ müharibəsində atamın xidmət etdiyi hərbi hissədən də şəhidlər olub. Hər məktəbə gedəndə, məktəbdən qayıdanda onların xatirəsinə salınmış parkın yanından keçirik. Ötən il noyabrın 8-də Zəfərin iki illiyi qeyd olunurdu. Onda şəhid anası demişdi: Bu Zəfər şəhid analarının göz yaşını sildi. Səhərisi gün müəllimimiz bizə o ananın dediklərini geniş şəkildə izah edərək demişdi ki, göz yaşını silmək dərdi yüngülləşdirmək deməkdi. Şəhid analarına elə gəlir ki, qələbəni qazananların sırasında onların oğullarının ruhu da olub. Sonra müəllimimiz bizə o ruh haqqında danışmışdı. Biz məktəblilər də şəhidlərimizin ruhunu həmişə ehtiramla xatırlayacağıq...

1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü rahat, sülh, əmin-amanlıq şəraitində gözəl keçirdiyimiz üçün də əsgərlərimizin qazandığı Zəfərə borcluyuq. Bu Zəfərə görə 1 İyunu biz də gözəl qarşılayırıq. Əminik ki, bizim yaşıdımız olan uşaqlar görmədikləri kəndlərinə qayıdacaqlar. Yaxın vaxtlarda bu günü öz məktəblərində qarşılayacaqlar.

**Nurcan Bayramova** (3-cü sinif şagirdi):

- Mənim də atam hərbçidir. Hələ məktəbə getmədiyim vaxtlarda da mənə torpaqdan danışardı. Anam bəzən söhbətimizə qoşulanda atam qətiyyətlə, "Vətənin, torpağın, dövlətin nə olduğunu bu yaşında bilməyən uşaq gələcəkdə Vətəni, dövləti necə sevər?" - deyərdi. Neçə illər əvvəl olmuş döyüşlərdən danışardı, qəhrəmanlardan danışardı. Vəzir adlı bir döyüşçüdən danışmışdı. Demişdi ki, müharibə başlayanda qəhrəmancasına döyüşüb, xeyli düşməni məhv edib. Atamın boynunu qucaqlamışdım, "Mən də hərbçi olacam", - demişdim. Gülümsünmüşdü, bir-neçə gündən sonra mənə hərbi paltar tikdirmişdi. O paltarı sevə-sevə geyinirəm.

Atam deyir ki, rayonlar, kəndlər işğal olunanda uşaqlar da çox əziyyətlər çəkiblər. Yollarda da, məskunlaşana kimi o kənddə, o biri kənddə, şəhərdə də. Çoxusu şəhərdə illərlə yataqxanalarda yaşayıb. Ailə bir otağa necə sığıb? Uşaqlar dərslərini necə öyrəniblər? Universitetə necə hazırlaşıb-



lar? Çox çətinliklər görüblər. Atam da deyir, müəllimlərimiz də deyir, işğaldan azad edilmiş kəndlər tikiləcək, hamı öz evinə köçəcək, onda o vaxtlar əziyyət çəkən uşaqların uşaqları Azərbaycan Ordusunun qazandığı Zəfərə görə 1 İyunu babalarının evində sevinə-sevinə qeyd edəcəklər.

**Ayan Mehdiyeva** (2-ci sinif şagirdi):

- Atam mənə müharibə haqqında çox şey danışıb. Döyüşlərdən danışıb, döyüşçülərdən danışıb, qəhrəmanlardan danışıb. Müharibə vaxtı döyüşlərə gedən döyüş maşınlarına, döyüşçüləri döyüşə aparan



maşınlara yollar boyu əl edən uşaqlardan danışıb. O uşaqlar bizim yaşıdlarımız olub. Bir dəfə dörd-beş məktəbli yolda döyüş bölgəsinə döyüşçü aparan avtobusun qarşısını kəsib, analarının bişirdiklərini döyüşənlərə çatdırmalarını xahiş ediblər. Atam deyirdi ki, bu, həmin uşaqların müharibədə iştirakı olub. Hərdən yadımıza düşür ki, bizim yaşıdlarımız da müharibədə iştirak edib, onlarla fəxr edirik. Nə gizlədim, əgər döyüş bölgəsində, döyüşlərə aparan yolun kənarında yaşasaydıq, biz də o uşaqlar kimi, döyüşlərə döyüşçü aparan avtobusların qarşısına çıxardıq.

Xocalı soyqırımı günündə televizorda verilişlərə baxanda anama sığınmışdım, nə gizlədim, ağlamışdım, anamın göz yaşları mənim saçımı islatmışdı. Atam ikimizə də təsəlli kimi demişdi ki, İkinci Qarabağ müharibəsində ordumuzun qazandığı Zəfər bu ağrı-acıları bir qədər azaltdı, Xocalı faciəsində qətlə yetirilən uşaqların da qisası alındı...

Məktəbdə "Məktəblilərin sülh nəğməsi"ni bizə də öyrədiblər. Hamımız bu mahnını təkcə mahnı kimi deyil, məktəbli arzusu kimi oxuyuruq. Biz də istəyirik ki, dünyada sülh ol-



sun. O gün atamdan bir misra eşitdim: Biz hərb istəmirik, hərbə hazırıq. Biz də sülh istəyirik. İstəyirik ki, heç zaman müharibə olmasın. 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Gününü də bu arzu ilə qarşılayırıq.

**Yunus Məmmədov** (3-cü sinif şagirdi):

- Birinci Qarabağ müharibəsində atalarımız biz yaşda olublar. Onlar da müharibənin nə olduğunu biz yaşlarında olanda biliblər. Ona görə də bizimlə söhbətlərində müharibədən də danışırlar. Bizim Vətənə sevgi ruhunda böyüməyimizi istəyirlər. Mənim atam da hərbçidir. O da İkinci Qarabağ müharibəsinin iştirakçısıdır. Onun da döyüş təltifləri var. Atam deyir ki, bütün müharibə iştirakçılarının ən böyük təltifi qazanılan Zəfərdir, təkcə müharibə iştirakçılarının yox, hamının.

Bu Zəfər çətin şəraitdə böyüyən, oxuyan, torpaqlarından



didərgin salınan hərbi xidmətə gedən uşaqların da Zəfəri oldu. Bu Zəfər onları çətin şəraitdən qurtardı. Onlar işğaldan azad edilmiş doğma kəndlərinə ata-anaları ilə qayıdacaqlar, kəndlərini tanıyacaqlar. Babası Zəngilanın Ağalı kəndindən olan məktəbli "Yayda harada olacaqsan?" - sualına sevinclə, "Kəndimizdə, Ağalıda!" - deyib. Bu sevinci ordumuz yaratdı, bu sevgi ordumuza olan sevgidir...

Müəllimlərimiz deyirlər ki, uşaqlara ən böyük hədiyyə sülhdür. Biz uşaq olanda da, böyüyəndə də, gəncləşəndə də həmişə sülh olsun deyərək yaşayacağıq. Əsgərlərimizə deyirik ki, bu sevincimizə görə çox sağ olun, əsgər əmilərimiz!

**Kənan Tağıyev** (3-cü sinif şagirdi):

- Xudayar adlı bir döyüşçü varmış. Döyüşçülər onu çox sevirmiş. Hərdən mahnılar da oxuyurmuş. Xudayarın bir mahnısını televizordan mən də eşitmişəm. Çox xoşuma gəlib. Atam deyir ki, müharibədə belə mahnılar döyüşçüləri qələbəyə aparıb. Bildim ki, Xu-



dayar həm döyüşü ilə, həm də mahnısı ilə Vətənə xidmət edib. Biz uşaqlar Vətəni Mübariz kimi, Çingiz kimi, Xudayar kimi sevirik. Müəllimimiz deyir ki, qəhrəmanlar Vətən üçün döyüşdülər, Vətən üçün şəhid oldular.

Xocalı faciəsi haqqında veriliş atama da çox pis təsir göstərib. Orta məktəbin aşağı siniflərində oxuyanda hərbçi olmağı qərara alıb. Ata-anası onun arzusuna yox deməyib. Atam təhsil alıb, müxtəlif hərbi hissələrdə xidmət edib. Məni birinci sinfə məktəbə gedəndə atam aparmışdı. Orada atam da danışmışdı. Demişdi ki, mənim oğlum da hərbçi olacaq. Həmin gündən sonra bu fikir mənim düşüncələrimdədir.

Böyüyəndən sonra mən də atam kimi hərbçi olacam, Vətənimiz indiki kimi onda da sülh içində, uşaqlar indiki kimi dinc dünyada yaşayacaqlar...

**Nurlan Abdullayev** (1-ci sinif şagirdi):

- Evdə atamdan, məktəbdə müəllimlərimizdən, məktəbə gedəndə uşaqlardan eşitmişəm. Ona görə hamısı yadımda qalıb. Həmişə ordumuzun güclü olduğunu eşidirəm, qəhrəmanlıqlar eşidirəm. İndi ikinci sinif şagirdi olacam. Bir yaşbir yaş böyüyürəm. Atam deyir ki, böyüyəndə sən də Vətəni yaxşı tanıyacaqsan. Vətəni mən də sevirəm, tanıyandan sonra da sevəcəm. Bizi dövlətimiz müdafiə edir. Biz xoşbəxt uşaqlarıq...

# Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə silsilə tədbirlər keçirilib





*Müdafiə nazirinin tapşırığına əsasən, 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibəti ilə silsilə tədbirlər keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, tədbirlərdə əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Dövlət Himni səsləndirilib.

Müdafiə Nazirliyinin təşkilatçılığı ilə keçirilən silsilə tədbirlər çərçivəsində hərbi qulluqçular uşaq evlərini ziyarət edərək bayram münasibətilə uşaqlara müxtəlif hədiyyələr təqdim ediblər, habelə bir qrup şəhid övladının sağlamlığının qorunması məqsədilə onların müayinə və müalicəsi, eləcə də dispanserizasiyası təşkil olunub.

Tədbirlərdə, həmçinin bayram süfrələri açılıb, uşaqlar üçün əyləncəli proqram nümayiş etdirilib.



Sonda xatirə şəkilləri çəkdirilib.

* * *

Naxçıvan Qarnizonu tam orta məktəbinin direktoru, Azərbaycan Respublikasının əməkdar müəllimi Natiq Əhmədov, Naxçıvan Qarnizonu "Nərgiz" uşaq bağçasının müdiri Mərcan Lalayeva və digər çıxış edənlər uşaqları təbrik edib dərslərində uğurlar arzulayıblar. Bildirilib ki, 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü uzun illərdir bütün dünyada qeyd edilir və hər bir ölkə, hər bir dövlət uşaqları qorumağı, onları müdafiə etməyi özünün əsas vəzifəsi hesab edir.

Qeyd olunub ki, Azərbaycanda dövlətimiz tərəfindən daim uşaqlara xüsusi diqqət və qayğı göstərilir, onların sağlam ruhlu, əqidəli, bilikli, savadlı gənclər kimi yetişməsi üçün hərtərəfli şərait yaradılır. Bu qayğıdan bəhrələnən Naxçıvan Qarnizonu tam orta məktəbinin şagirdləri də təhsildə hər zaman uğur qazanır, keçirilən fənn olimpiadalarında, bilik yarışlarında və imtahanlarda yüksək nəticələr əldə edirlər.

Tədbirin bədii hissəsində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin uşaqlara sevgisindən bəhs edən videoçarx nümayiş olunub.

Naxçıvan Qarnizonu tam orta məktəbinin şagirdləri və "Nərgiz" uşaq bağçasının fidanları şeir və mahnılar səsləndirib, musiqi nömrələri ilə ədəbi-bədii kompozisiya nümayiş etdiriblər.

Sonda Naxçıvan Qarnizonu tam orta məktəbinin təhsildə uğur qazanan bir qrup şagirdi və onların müəllimləri fəxri fərmanla mükafatlandırılıb.





# Xəbərlər: hadisələr, faktlar

## Almaniyada İŞİD qruplaşmasının yeddi tərəfdarı həbs olunub



Almaniya polisi İŞİD terror qruplaşmasının Suriya qoluna maliyyə dəstəyi verməkdə şübhəli bilinən 7 nəfəri həbs edib.

Dörd qadın və üç kişi terror təşkilatı üçün ianə toplayırmış. Yığılan pulun həbs edilmiş İŞİD üzvlərinin Suriyadakı düşərgələrdən qaçmasına kömək məqsədi daşıdığı ehtimal olunur.

Almaniyanın bir neçə əyalətində keçirilən əməliyyatlar zamanı saxlanılan həmin şəxslər Federal Məhkəmə qarşısına çıxarılacaq.

Saxlanılanlar arasında dörd Almaniya vətəndaşının, həmçinin bir Kosovo albanı, bir türk və bir mərakeşlinin olduğu bildirilir. Onlar həbs olunana qədər 65 000 avrodan çox pul toplayıblar.

## İsveçrə kompaniyası Ukraynaya 96 ədəd “Leopard 1” tankı göndərmək istəyir



İsveçrənin "Ruag" silah kompaniyası Almaniyanın "Rheinmetall" konserninə 96 ədəd "Leopard 1" tankının mümkün satışı üçün hakimiyyət orqanlarına müraciət edib. Həmin tankların sonradan Ukraynaya göndərilməsi nəzərdə tutulur.

Deutsche Presse-Agentur (DPA) agentliyi bu barədə "Ruag" silah kompaniyasına istinadla məlumat yayıb. Məlumata görə, hazırda həmin tanklar istifadəyə yararsızdır.

İsveçrənin Dövlət İqtisadiyyat Katibliyi (SECO) "Ruag" kompaniyasından müvafiq müraciət aldığını təsdiqləyib. SECO mart ayında silah kompaniyasının analoji müraciətinə rədd cavabı vermişdi.

Kompaniyanın mətbuat katibi Kirsten Hammerixin sözlərinə görə, onlar "saziş variantlarını yaxşı təhlil etmək üçün" rəsmi qərara nail olmaq istəyir.

## Danimarka qarşıdakı 10 il ərzində müdafiə sahəsinə əlavə milyardlarla avro xərcləyəcək



Danimarka qarşıdakı 10 il ərzində ölkənin müdafiəsinə 143 milyard Danimarka kronu (19 milyard avrodan çox) xərcləməyi planlaşdırır.

Vəsaitlərin artırılması Ukraynaya artan hərbi yardımla birlikdə Danimarkaya NATO-nun hərbi xərclərlə bağlı hədəfinə nail olmağa kömək edəcək.

Keçən il Ukrayna böhranına cavab olaraq, Danimarka 2030-cu ilin sonuna qədər müdafiə və təhlükəsizlik xərclərini ümumi daxili məhsulun 2 faizinə çatdırmağı vəd edib. Bu da NATO-ya üzv dövlətlər üçün əsas hədəflərdəndir.

Bununla yanaşı, Danimarkanın hazırkı Baş naziri Mette Frederiksen NATO-nun baş katibi postuna ciddi iddiaçı kimi ortaya çıxıb. Bütün bu məsələlər fonunda, ölkədə müdafiə xərclərinin artırılması planları da artıq öz təsdiqini tapıb.

Danimarka hazırda müdafiəyə sahəsinə ildə təqribən 27 milyard kron (3,6 milyard avrodan çox) xərcləyir, lakin 2033-cü ilə qədər bu məbləği tədricən artıracaq. Yalnız gələn il bu məbləğ 6,9 milyard kron artırılacaq.

Qeyd edək ki, bundan əvvəl Danimarka hökuməti yaxın 5 il ərzində Ukraynaya maliyyə yardımını artırmaq planlarını açıqlayıb. Bu müddət ərzində, yalnız Ukraynaya hərbi yardım göstərmək məqsədləri üçün Danimarka əlavə 2,4 milyard avro ayıracaq.

**AZƏRTAC-ın materialları əsasında**

# Raket və Artilleriya Qoşunlarında keçirilən təlimlər davam edir

Cari ilin hazırlıq planına əsasən, ümumqoşun poliqonunda Raket və Artilleriya Qoşunlarının bölmələrində keçirilən döyüş atışlı taktiki təlimlər davam edir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, plana uyğun olaraq, daimi dislokasiya məntəqələrindən cəmləşmə rayonlarına çıxarılan bölmələr atəş mövqelərini tutaraq qurğuların döyüş tətbiqinə hazırlanması və icrası üzrə nəzərdə tutulan tapşırıqları normativə uyğun yerinə yetiriblər.

Vətən müharibəsi və son əməliyyatlarda qazanılan təcrübə nəzərə alınmaqla real döyüş şəraitinə uyğun keçirilən təlimlərdə bölmələr reaktiv yaylım atəşi sistemi və özüyeriyən haubitsalardan nümunəvi döyüş atışları icra ediblər.

Döyüş atışlı taktiki təlimlərdə şərti düşmənin idarəetmə məntəqələrinin, canlı qüvvəsinin və digər hədəflərinin aşkar edilməsi, eləcə də müəyyən olunaraq məhv edilməsi üzrə qarşıya qoyulan tapşırıqlar peşəkarlıqla icra olunub.



# “N” hərbi hissəsində döyüş atışlı taktiki təlim keçirilib

Müdafiə nazirinin təsdiq etdiyi 2023-cü il üçün hazırlıq planına əsasən, ümumqoşun poliqonunda "N" hərbi hissəsinin döyüş atışlı taktiki təlimi keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, təlimin planına uyğun olaraq, tapşırıqların icrası ilə bağlı bölmələrin fəaliyyətləri xəritə üzərində dəqiqləşdirilib, komandirlər tərəfindən qəbul edilmiş qərarların məruzələri dinlənilib.

Bölmələr müxtəlif üsullarla taktiki yerdəyişmələri yerinə yetirib, şərti düşmənin təxribat törədəcəyi ehtimal edilən ərazi istiqamətində irəliləyərək atıcı silahlardan praktiki atışlar icra ediblər.

Döyüş atışlı taktiki təlimdə şərti düşmən hədəflərinin aşkar olunaraq zərərsizləşdirilməsi üzrə qarşıya qoyulan tapşırıqlar motoatıcı bölmələr tərəfindən müvəffəqiyyətlə yerinə yetirilib.

Təlimin keçirilməsində əsas diqqət bölmələrin döyüş qabiliyyətinin daha da yüksəldilməsi, o cümlədən şəxsi heyətin səhra və praktiki vərdişlərinin inkişaf etdirilməsinə yönəldilib.

# Düşmən bilir ki, Azərbaycan Ordusu yenilməzdir



Azərbaycan tarixinə nəzər saldıqda birmənalı şəkildə Qarabağın daima Vətənimizin ayrılmaz parçası olduğunu görürük. Erməni xalqı isə saxta tarixlərindən danışarkən bunu inkar etməyə çalışsa da, heç vaxt yetərli bir sübut gətirə bilmir. Qurma faktlarla uzun illər Azərbaycana qarşı ərazi iddiası sürən ermənilər bir çox təxribata əl atmaqla məşğul olublar. 1988-ci ildən başlayaraq bu təxribatlar tamamilə yeni şəkildə həyata keçirilərək millətimizə qarşı etnik təmizləmə və soyqırımı siyasətinə çevrildi. Azərbaycan Sovet İttifaqından ayrılaraq müstəqilliyinə qovuşarkən nankor Ermənistan elan edilməyən müharibəyə başladı. Qeyri-humanist, açıqca faşist üsulları ilə dinc əhalimizə qarşı silahlı hücumlar etdi, tarixi torpaqlarımızın işğalına başladı. Bu silahlı münaqişə tarixə Birinci Qarabağ müharibəsi kimi yazıldı. 1994-cü ilin mayında atəşkəs elan olunaraq Qarabağ münaqişəsi dondurulmuş münaqişələr siyahısına əlavə edildi.

Düşmən işğalında olan torpaqlarımızın azadlığı uğrunda ordumuz döyüşçülük tarixinə Aprel və Tovuz döyüşləri, Günnüt əməliyyatı və s. qələbələr yazsa da, Ermənistan sülh danışıqlarından hər zaman boyun qaçırırdı, yeni hərbi təxribatlar həyata keçirirdi. Bunlardan biri də 2020-ci il sentyabrın 27-də baş verdi. Səhər saatlarında Ermənistan silahlı qüvvələri daha bir genişmiqyaslı təxribat törədərək cəbhə boyu zonada iriçaplı silahlardan, artilleriyadan, minaatanlardan istifadə edərək ordumuzun mövqelərini, habelə bir sıra yaşayış məntəqələrimizi atəşə tutdu. Döyüş aktivliyinin qarşısını alaraq mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Ordusu əks-hücum əməliyyatına keçdi.

Torpaqlarımızın işğaldan azad olunması, Azərbaycan Ordusunun düşmənə sarsıdıcı zərbələr endirməsi xəbəri xalqımızın döyüş ruhunun yüksəlməsinin səbəblərindən biri oldu. Şəhər və rayonlarımızda minlərlə həmvətənlimiz könüllü olaraq orduya qatılmaq, Azərbaycan əsgəri ilə çiyin-çiyinə doğma Qarabağımızı azad etmək üçün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət etdilər. Sentyabrın 28-də Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə ölkədə qismən səfərbərlik elan edildi. Artıq bu əks-hücum əməliyyatı Vətən müharibəsinə çevrildi. Ordumuzun gücünü və qüdrətini əsgərlərimiz ilə yanaşı, xalqımız da bütün dünyaya göstərdi. Məhz Müzəffər Ali Baş Komandanın güclü iradəsinin, rəşadətli Azərbaycan Ordusunun qüdrəti və xalq-ordu birliyinin möhkəmliyi sayəsində tarixi Zəfər qazanıldı.

44 günlük haqq savaşımızda dünyaya nümayiş edilən ordu potensialının daim yüksək səviyyədə qorunub saxlanılması məqsədilə orduda hərbi vəzifəli vətəndaşlarımızla mütəmadi olaraq təlim toplanışlar keçirilir. Bu cür təlimlərin əsas məqsədi ehtiyatda olan hərbi vəzifəlilərin döyüş vərdişlərini və



təcrübələrini təkmilləşdirməkdir. Habelə, toplanışların keçirilməsi zamanı onlar müasir silah və texnikalarla da tanış olur, hərbi ixtisasları haqda biliklərini inkişaf etdirirlər.

Cari il mayın 29-da Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi 2023-cü il üçün hazırlıq planına əsasən, "N" hərbi hissəsində bir qrup hərbi vəzifəlilərin təlim toplanışı yekunlaşdı. Təlim prosesinin gedişatı ilə maraqlanmaq, hərbi vəzifəlilərlə həmsöhbət olmaq məqsədilə "N" hərbi hissəsinə yollandıq.

Öyrəndik ki, təlim toplanışı zamanı şəxsi heyətə sıra, taktiki, hərbi tibbi hazırlıqlarla yanaşı, rabitə, hərbi topoqrafiya və ixtisas hazırlığından nəzəri və praktiki məşğələlər keçirilir. Bundan başqa, nizamnamələr və hüquq dərsləri, həmçinin ictimai-siyasi hazırlıq dərsləri keçirilir, siyasi məlumatlandırma aparılırdı. Cəlb olunan şəxsi heyətin dözümlülüyünün, dəqiqlik və mətinliyinin artırılması məqsədi ilə fəaliyyətlər icra olunur, atıcı silahlardan və qumbaraatanlardan atış çalışmaları yerinə yetirilirdi.

Daha ətraflı məlumat üçün mayor Azər Hümbətov ilə həmsöhbət olduq. O bildirdi ki, ilk növbədə, təlim toplanışına cəlb olunan hərbi vəzifəlilər hərbi hissədə qeydiyyatdan keçərək həkim müayinəsindən yoxlanılıb, hərbi geyim və digər təminat növləri ilə təmin olunublar. "Sözsüz ki, keçirilən bütün dərs və məşğələlər Vətən müharibəsi və son əməliyyatlarda qazanılan təcrübə nəzərə alınmaqla keçirildi. İcra edilən çalışmalarda təhlükəsizlik qaydalarına tam ciddi riayət olundu. Bu cür təlimlərin mütəmadi keçirilməsi ehtiyatda olan hərbi vəzifəlilərin həm döyüş və mənəvi-psixoloji hazırlığının artırılmasına, həm də vətənpərvərliyin aşılanmasına müsbət töhfə verir. Belə təlimdən bir daha görünür ki, hər bir azərbaycanlı Vətəni üçün döyüşməyə, qələbə qazanmağa hazırdır. Artıq dünya da bunun şahididir. Düşmən də bilir ki, Azərbaycan Ordusu yenilməzdir", - mayor Azər Hümbətov dedi.



Baş leytenant Rəşad Abdullayev, leytenantlar Zəka Həsənov və İlkin Əliyev, gizir Nurlan Rəfizadə də zabitin sözləri ilə razı olduqlarını bildirdilər. Qeyd etdilər ki, başa çatmış təlimdə qarşıya qoyulan bütün məqsədlərə tam nail olundu. Azərbaycan Ordusunda həm həqiqi hərbi xidmətdə olanların, həm də ehtiyatda olan hərbi vəzifəlilərin hazırlıq səviyyəsinin yüksək olmasının vacib şərt olduğunu vurğuladılar.

Təlim toplanışına cəlb olunan şəxsi heyətlə də həmsöhbət olduq. Ehtiyatda olan hərbi qulluqçu Emil Məmmədov bildirdi ki, qalib ordunun hərbi mundiri daşımaq insana qürur dolu hisslər yaşadır. Azərbaycan xalqı hər zaman igid və mərd oğulları ilə seçilib və həmin qəhrəmanlar Vətən müharibəsində dünya hərb tarixinə qızıl hərflərlə yeni səhifə yazdılar.

Təlimə cəlb olunan Rüfət Abbasov qeyd etdi ki, hərbi vəzifəlilərə keçirilən təlim toplanışları şəxsi heyətin peşəkarlığının artırılması baxımından müstəsna rola malikdir. "Təlimin gedişatında komandirlər tərəfindən bizə silahların taktiki-texniki xüsusiyyətləri, natamam sökülüb-yığılma və istifadə qaydalarını əhatə edən dərslər, ilkin tibbi yardımın göstərilməsi və yaralıların döyüş meydanından təxliyə edilməsi məşqləri keçirildi.

Təlimə cəlb olunan şəxsi heyətlə söhbət etdikcə daha çox qürurlanırdıq. Hər birində yüksək vətənpərvərlik, inam və cəsarət hiss olunurdu. Bunun başlıca səbəbi milli birliyimizdən irəli gəlir.

**Baş leytenant**
**İbrahim MƏMMƏDBƏYOV**
**"Azərbaycan Ordusu"**

# İdman

## Bakıdakı dünya çempionatında daha iki dəst medal öz sahibini tapıb



Bakıda keçirilən taekvondo üzrə dünya çempionatının 4-cü yarış günü başa çatıb.

Günün yekununda daha 2 dəst medal öz sahibini tapıb.

Kişilər arasında 63 kq çəki dərəcəsində türkiyəli Hakan Recber dünya çempionu olub. O, finalda tailandlı Banlunq Tumtimdanqı məğlub edib. Bürünc medallara Xuan Yorquera Sala (İspaniya) və Karlos Navarro (Meksika) yiyələniblər.

Qadın taekvondoçular arasında 73 kq-dan yuxarı çəkidə də fəxri kürsünün ən yüksək pilləsinə Türkiyə təmsilçisi qalxıb. Nafiya Kuş bütün rəqiblərinə qalib gələrək qızıl medal qazanıb. Gümüş medalı Sevetlana Osipova (Özbəkistan) əldə edib. 3-cü yeri isə Kristina Adebayo (Dünya Taekvondosu) və Blanka Kuk (Böyük Britaniya) tutub.

Beləliklə, 16 dəst medaldan 10-u artıq öz sahibini tapıb.

## Rafael Ağayevin "Karate Combat"dakı növbəti rəqibi bəlli olub




Azərbaycanın karate üzrə beşqat dünya və 11 qat Avropa çempionu Rafael Ağayevin peşəkarların mübarizə apardığı "Karate Combat"dakı növbəti rəqibi bəlli olub.

İdmançımız "Tokio-2020" Yay Olimpiya Oyunlarının gümüş mükafatçısı ABŞ-dan olan Coş Kuayhagenlə qarşılaşacaq. Döyüş iyunun 24-də Florida ştatının Mayami şəhərində baş tutacaq.

Qeyd edək ki, Rafael Ağayev "Karate Combat" turnirində 2018-ci ildə debüt edib.

## "Norway Chess": Şəhriyar Məmmədyarov hindistanlı Qukeş Dommaraku ilə qarşılaşacaq



Azərbaycan şahmatçısı Şəhriyar Məmmədyarov Norveçin Stavanger şəhərində təşkil olunan "Norway Chess" turnirində növbəti oyununu keçirəcək. 38 yaşlı qrossmeyster üçüncü turda hindistanlı Qukeş Dommaraku ilə üz-üzə gələcək.

Ş.Məmmədyarov hazırda 1,5 xalla norveçli Maqnus Karlsenlə birlikdə 8-9-cu pillələri bölüşür. Aktivində 3 xal olan Dommaraku isə Fransanı təmsil edən Alireza Firuzca ilə 4-5-ci yerdədir.

Qeyd edək ki, "Norway Chess" iyunun 9-da başa çatacaq. Reqlamentə əsasən, birbaşa qələbəyə görə 3 xal verilir. Heç-heçə olacağı təqdirdə rəqiblər armageddonda qarşılaşırlar. Bu halda qalib 1,5, məğlub olan tərəf isə 1 xal əldə edir.

**AZƏRTAC-ın materialları əsasında**

Leytenant Hüseynov Nihad Hüseyn oğluna məxsus MN № 0064230 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları baş çavuş Tağıyev Etibar Bəxtiyar oğluna məxsus AD № 0063049 nömrəli və əsgər Babayev Ziya Baba oğluna məxsus AD № 0040115 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktorun müavini**
kapitan
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Elvin VƏTƏNDUST

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 271
Nüsxə 4725